Azərbaycan.- 2021.- 29 aprel. S. 5.

# "Fransa Vətəndaş müharibəsi astanasındadır"

Fransada yenidən qarışıqlıqdır. Bu günlər istefada olan yüksəkvəzifəli generalların Prezident Emmanuel Makrona açıq müraciəti ölkədə böyük qalmaqal yaratmışdır. Əlcəzairdə fransızlara qarşı qiyamın 60-cı ildönümündə açıq məktubun müəllifləri xəbərdarlıq etmişlər ki, Fransa Vətəndaş müharibəsi astanasındadır.

Generalların fikrincə, bu çətin zamanda ölkə ciddi təhlükə qarşısındadır. Onların dediyinə görə, dövlət bir neçə ölümcül təhdidlə, o cümlədən islamçı və miqrantlar "orduları" ilə üz-üzədir.

Məktubda bildirilir ki, bir tərəfdən islamçılar ölkənin bəzi rayonlarını özlərinə tabe edirlər, digər tərəfdən, qeyri-ağ əhali üçün ədalət uğrunda döyüşə girişmiş "fanatik partizanlar" "irqi müharibə"ni qızışdıraraq yerli icmalar arasında nifaq yaradırlar. Nəticədə tarixi şəxslərin abidələri dağıdılır.

Məktub müəllifləri həmçinin hökumətin iqtisadi siyasətinə qarşı çıxış edən etirazçılara - "sarı jiletlər"ə münasibətdə təmizləmə və repressiyalara qarşı çıxış edirlər.

Generallar hesab edirlər ki, artıq fikirləşməyə vaxt qalmayıb. Çünki günü sabah Vətəndaş müharibəsi artan bu xaosa son qoyacaq. Nəticədə Makron, Nazirlər Kabineti və deputatlar minlərlə vətəndaşın ölümünə görə məsuliyyət daşıyacaqlar.

Bu arada 2022-ci ildə yenidən prezidentliyə namizədliyini irəli sürməyi planlaşdıran millətçi Marin Le Pen istefada olan generalların çağırışını açıq şəkildə dəstəkləmişdir. "Fransa uğrunda mücadilədə mənə qoşulun", - deyə siyasətçi onlara çağırış etmişdir. "BBC News" telekanalı xəbər verir ki, ifrat sağçı KİV-də dərc olunmuş müraciəti 1000-ə yaxın ordu zabiti və əsgəri dəstəkləmişdir.

Hökumət isə məktubun işıq üzü görməsi faktını pisləmiş və ona imza atan hərbçilərin cəzalandırılmasını istəmişdir. Ordu işləri üzrə nazir Florens Parli xatırlatmışdır ki, silahlı qüvvələrdə xidmət edənlərə siyasi, yaxud dini məsələlərlə bağlı fikir bildirmək qadağandır. Onun dediyinə görə, hərbçilər iki dəyişməz prinsipi - neytrallığı və loyallığı rəhbər tutaraq siyasətdən kənarda qalmalıdırlar.

Nazir əlavə etmişdir ki, müraciəti imzalamış hərbçilərə qarşı cəza sanksiyalarının tətbiq olunması planlaşdırılır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***